# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№269/1** **25 noyabr 2015-ci il**

**Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi üzrə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi barədə**

"Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf konsepsiyasının (2012-2020-ci illər)" II "Auditor fəaliyyətinin idarə olunması, tənzimlənməsi və auditin institusional potensialının gücləndirilməsi" bölməsinin 3-cü "Auditor xidməti sahəsində qadağaların beynəlxalq təcrübəyə uyğunlaşdırılması" bəndinə əsasən hazırlanmış "Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi üzrə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi barədə" Auditorlar Palatası Aparatının rəhbəri Q.Bayramovun məruzəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi üzrə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi barədə" hazırlanmış material bəyənilsin və tətbiqi məqsədəmüvafiq hesab edilsin (əlavə olunur);
2. Auditorlar Palatasının struktur bölmələrinə (Q.Bayramov, N.Talıbov, F.Qarayev, S.Gülməmmədov, M.Abbasov, V.Rəhimov, R.Cəfərli, F.Məmmədov) tapşırılsın ki, Palatanın Şurası yanında fəaliyyət göstərən müvafiq Komitələrlə birlikdə Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sisteminin tətbiqini təmin etsinlər;
3. Auditin hüquqi təminatı və standartlaşdırma idarəsinin rəisi M.Abbasova tapşırılsın ki, Auditorlar Palatasının bu sahəyə dair normativ sənədlərini "Auditor xidməti sahəsində araşdırma və intizam tədbirləri sistemi üzrə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi barədə" hesabatın müddəalarına uyğunlaşdırılmasını 1 (bir) ay müddətində təmin etsin;
4. Bu qərarın və materialın mətninin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin;
5. Bu qərar imzalandığı tarixdən qüvvəyə minir.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**